# Azərbaycan məqsədi işğal altında olan ərazilərini azad etməkdir

**Bu il oktyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb. Dövlətimizin başçısının amerikalı jurnalistin suallarına olduqca dəqiq, aydın və məntiqli cavabları ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən böyük razılıq hissi ilə qarşılanıb. Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti, Tibb Universitetinin professoru Nadir İsmayılov bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:**

– Mən cənab İlham Əliyevin "CNN International" televiziya kanalında yayımlanan müsahibəsi ilə diqqətlə tanış oldum. Xalqımızın sevimli liderinin dərin zəkasına, milli təəssübkeşliyinə, böyük müdrikliyinə bir daha heyran qaldım. Müxbirin "Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?" sualına cənab İlham Əliyev belə cavab verdi: "Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur... Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir".



Görürsünüzmü, nə qədər ağıllı və ədalətli cavabdır. Azərbaycan Prezidenti sonra haqlı olaraq vurğulayıb ki, Türkiyə regionda və xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə sabitləşdirici rol oynayır. Hər bir ölkənin tərəfdaşı və ya müttəfiqi ola bilər. Azərbaycan və Azərbaycan xalqı Türkiyə kimi tərəfdaşa, müttəfiqə və qardaş ölkəyə malik olmaqdan çox xoşbəxtdir. Biz Ermənistanın Fransanı özünə müttəfiq hesab etməsinə etiraz bildirmirik və Fransa hazırda Ermənistana ən çox dəstək göstərən ölkədir.

Azərbaycan-Türkiyə dostluğu, ölkələrimizin artan gücü və haqqın, ədalətin tərəfində durması Qərbdə çoxlarını narahat edir. Halbuki Qarabağ münaqişəsində günahkar tərəf məhz Ermənistan və onu dəstəkləyən qüvvələrdir.

Ermənistan işğalçı və təcavüzkar dövlətdir. Dünya bunu görməlidir. Təəssüf ki, bəzi güclər hələ də həqiqəti görmək istəmirlər. Həqiqət isə budur ki, Ermənistan, nəinki təkcə Dağlıq Qarabağı işğal edib və muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda, əhalisinin sayı 700 min nəfər olan Azərbaycanın yeddi rayonunu işğal edib.

Azərbaycanın əsas məqsədi bu əraziləri azad etmək və azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa gəldikdə, rəsmi Bakı dəfələrlə bəyan edib ki, müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar da yan-yana yaşaya bilərlər.

Bəli, Azərbaycan dövləti Qarabağ münaqişəsinin həllində düzgün və ədalətli mövqe tutub. Xalqımızın beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyinə heç kim kölgə sala bilməz.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

